

*İsmayıl MƏRCANLI İMANZADƏ*

### ŞEİRİMLƏ EDİRƏM DUALARIMI...

Hər kəlməm, hər misram xeyir-duamdır,
Haqq sevən insanam, bilənlər-bilir.
Çöhrəmdə nur saçan şeir,-duamdır,
Ruhumdan su kimi süzülüb gəlir!

Dirilik diləyib torpağa, suya
İşığı, havanı öyən adamam!
Kimlərsə çatanda kama-arzuya,
Tanrıya həmd olsun,-deyən adamam!

Bəzən şükr etmişəm yaman günə də,
Elə zənn etməyin bir parça daşam.
Təkcə özümə yox, özgəsinə də
Yaxşı gün-güzəran arzulamışam...

Nəfsimə ağalıq etmişəm hər an,
Süfrəmə dad verib halal qazancım.
Məddahı qabağa dartıb aparan
Ucuz "şan-şöhrətə" yoxdur inancım!

Mənim dualarım yurd savaşımdır,
Vətən, bayraq eşqim hər şeydən öncə!
Şəhidlər ən əziz can sirdaşımdır,-
Adları yadımdan çıxmaz ölüncə!..

Hər misram tapdığım gizli xəzinə,
Kimsə ala bilməz əldən varımı.
Səhərlər oyanıb azan səsinə,
Şeirimlə edirəm dualarımı!..

08.08.2022

### QOYUN ÇIXIB GEDİM GƏLDİYİM YERƏ

Mənim yurd həsrətim gözü yaşlıdır,
Daha səbr etməyə qalmayıb tabım.
Eşitdiyim vədlər "ikibaşlıdır",
Hələ də bağlıdır pəncərəm-qapım.

Axı, qərib eldə nə ölümüm var,
Burda az görmədim boz sifətləri.
Dünyanı başıma elədilər dar,
Bu yolsuz məkanın quduz "itləri",

Yol azdım zülmətdə itən köç kimi,
Boğuldu içimdə səsim-avazım.
Arxasız qoymasın Allah heç kimi,
Quruca təsəlli nəyimə lazım?..

Hərdən yuxumda da tutdum üzümü,
Bir vaxtlar pir-ocaq bildiyim yerə.
Necə ovundurum daha özümü,
Qoyun çıxıb gedim gəldiyim yerə.

Tükənir günbəgün ömür möhlətim,
Yolların "qıfıl"ın açın, qayıdım.
Ta çatmır dadıma sözüm-söhbətim,
Çəkilib qarşımdan qaçın, qayıdım.

"Ritmi" dəyişsə də bərənin-bəndin,
Doğmadır hər kəsə köhnə yuvası.
"Ağıllı şəhər"in, "ağıllı kənd"din
Hələ sümüyümə düşmür havası...

Qoyun gedib çatım öz ocağıma,
Kül altında qalan izimi tapım.
Dərd-qəm dolaşmasın əl-ayağıma,
Açılsın taybatay pəncərəm, qapım.
Uzalı qalmasın bir də əllərim
İllərlə dərdindən öldüyüm yerə.
Qırın "tilsim"ini bağlı yolların,
Qoyun çıxıb gedim gəldiyim yerə...

10.10.2022

### ALLAH

*(Tanrı dualarım)*

Sənə fəda olum, göstər karını,
Qoyma talasınlar yurdun varını.
Göyərt məzlumların arzularını,
Yamanlıq törəyib-artanda, Allah!

"Əlsizin-dilsizin" görsən halını,
Qudurğan kəslərin qatla qolunu.
Özün göstər bizə haqqın yolunu,
Yadlar başımızı qatanda, Allah!

Halal insanlara şərəf-şan gətir,
Yurda açıq səma, nurlu dan gətir.
Haqsızın yediyin burnundan gətir,
Nəfsin girdabında batanda, Allah!

Namuslu kəslərin üzün ağ eylə,
Yurdumun hər səmtin bağça-bağ eylə.
Xeyirxah bəndəni minbudaq eylə,
Kasıbın əlindən tutanda, Allah!

İsmayılın qəlbində yerin var hər an,
Sənindir əbədi dirilik, ad-san.
Bilirəm, rahat nəfəs alırsan,
Zalımın axırı çatanda, Allah!

30.11.2022

### GÜNLƏRİM

Bir də "caynağıma" keçərmi yaxan,
Hər anın bulanıq su kimi axan.
Gözüm baxa-baxa əlimdən çıxan -
Ruhu yağmalanan, talan günlərim!

Qəfil tuş gələndə qüssəyə-qəmə,
Bilmədim dərdimi söyləyim kimə...
Yas tutub uğursuz məhəbbətimə -
Gül kimi vədəsiz solan günlərim!

Şeirim isinsə də ağızda-dildə,
İtirdim özümü hər ötən ildə.
Könlümü sızladan qərib bir eldə -
Elə hey sükuta dalan günlərim!

"Ağılsız" vaxtımda məni çaşdıran,
Vəfasız bir qıza şeir qoşduran...
Əzəli incitək göz qamaşdıran -
Axırı boz üzlü yalan günlərim!

Bilirəm nə meysən, nə də ki məzə,
Astarın kömköhnə, üzün təmtəzə.
Bir gün üz tutanda"gedər-gəlməzə -
Qurdla qiyamətə qalan günlərim!

11.12.2022

### NEYLƏYİM

Bilmirəm neyləyim ki
Gözümdə yaş qalmasın.
"Ətəyimdə" kiməsə
Atmağa daş qalmasın.

Bu alın yazısımı...
Tale fəndgir, mən naşı.
Doğulandan gedirəm
Əcəlimlə yanaşı.

Kaş, nə əllərim əsə,
Nə ayağım sürüşə.
Ömrün yükü çiynimdən
Elə qəfildən düşə...

06.01.2023

### ADAMIN

Bəxt kəsir bəndin-bərəsin,
"Dişi batdığı" adamın.
İllər "şirəsin" sümürür,
Başın qatdığı adamın.

Öz şəkli var öz səsində,
Dərd yurd salıb həvəsində...
Bəxti hər gün sinəsində
Ocaq çatdığı adamın.

Bitmir taleyin oyunu,
Cəng-savaş qanla yuyunur.
Ölüm "oxşayır" boyunu
Gözü tutduğu adamın...

07.01.2023

### MƏNDƏN ƏSİRGƏMƏ DUALARINI...

Bəzən dost-tanış da yanmır halıma,
Niyə bədxahlarım günbəgün artır?
Daş-kəsək yağdırır biri yoluma,
Biri ayağımdan yapışıb dartır -
Məndən əsirgəmə dualarını!

Fərli malım-mülküm, həyət-bacam yox,
Çıxır daş altından halal çörəyim.
Adımın üstündən xətt çəkənə bax,
Bilmir ki şeirimdir damım-dirəyim -
Məndən əsirgəmə dualarını!

Dayanıb durmuşam üzü qibləyə,
Hər kəlməm nur saçır sökülən də dan!
Vallah, heç özüm də bilmirəm niyə,
Daldada kölgəmi daşlayır nadan -
Məndən əsirgəmə dualarını!

Ovcumda bir xışma dən saxlamışam,
Sanma, bir qarnı tox, bir qarnı acam.
Söz-söz, misra-misra yarpaqlamışam,
Təkcə el-obama hələ möhtacam -
Məndən əsirgəmə dualarını!

Gücüm-taqətimdir "xəyali" sevgim,
Bilsin bilməyənlər, yenilməz dağam!
Nakam, könlü sınıq həyalı sevgim,
Səni ömrüm boyu yaşadacağam -
Məndən əsirgəmə dualarını!..

14.01. 2023

### DOĞULURUQ... ÖLÜRÜK...

Axı, adam dünyaya
Könüllü gəlməyib ki
Elə öz xoşuyla da
Bir gün "gedər-gəlməz"ə
Üzünü tutub getsin...
Yəqin, buna görə də
Çoxları ömrü boyu
"Dirilik suyu" gəzib
Tapmayanda, heç zaman
Anlamır ki nə etsin!..
Ağlı-qaralı dünya
Həm sevincdir, həm kədər!
Müəmmalı-təzadlı,
Hər anı yel qanadlı
Günlər bələdçimizdir,
Əzəldən sona qədər!..
Nədənsə dərk etmirik
Axı, nəyin xətrinə
Doğuluruq görəsən,
Ömrün mənası nədir?
Bəlkə də bu dünyanı
Vaxtında "üzüsulu"
Tərk edib, gedək deyə
Ölüm sonuncu fürsət,
Bir şəksiz bəhanədir!..

28.01.2023

### SƏNİ İTİRDİYİM GÜN...

Nisgilli qəlbimdə dərd düyüm-düyüm,
Görən göylər səni ovundururmu?
Sevgi məktublarım, nişan üzüyüm,
Bilmirəm, ovcunda hələ dururmu?

Yəqin ki səsimi ruhun eşidir,
Könlündən keçirsə gəlim yanına.
Yalqız bir çiçəyi meh də üşüdür,
Ah-naləm çatdımı de, ünvanına...

Bəxtin "girovuymuş" ülvi eşqimiz,
Ürəyim hələ də sim kimi tarım.
O uzaq illərdən qalıbsa bir iz,
Mən onu təzədən gəzib, axtarım...

Həsrətin əlimdən aldı tabımı,
Heyif ki vaxtında səddi aşmadıq.
Təkcə soraqların döydü qapımı,
Ta heç vaxt, hardasa qarşılaşmadıq...

Necə arxalanım nbir ağlı kəmə,
Loğmana möhtacdır adicə çat da.
Sevgisiz yaşamaq çətinmiş demə...
Səni itirən gün bildim, həyatda.

04.02.2023

### MƏN KİMƏM, NƏÇİYƏM...

Nədən yaşıllaşır təkcə yazda bağ,
Niyə puçur-puçur göz açır yarpaq?
Bunu anlamaqçün hava, su, torpaq -
Ya da bircə xışma dən olmalısan.

Saflıq da bir qəlbin arzusu kimi,
Xoş sözlər halallıq ruzisi kimi.
Durulmaq istəsən axar su kimi -
Böhtandan, yalandan gen olmalısan...

Niyə hər yetənə inandım, niyə,
Canımdan bezəndə, əl açdım göyə.
Mən kiməm, nəçiyəm-biləsən deyə -
Elə bircə dəfə "mən" olmalısan...

16.02.2023

### SÖZ BƏLƏDÇİM İDİ...

Çox gördüm "rəngini" aləmin-yasın,
Demədim halıma kimsə ağlasın...
Heç kim yurd-yuvasız, qərib olmasın,
Qəriblik ölümdən betərmiş, demə!

Düşmənə "yem" oldu abad obalar,
Söndü "nur yanaqlı" isti sobalar.
Qisməti qovmazlar-deyib babalar,
Zülmətdə çırpınmaq hədərmiş, demə!

İllərlə elə hey dirildim... öldüm,
Nə eynim açıldı, nə üzüm güldü...
Söz bələdçim idi... Şuşada bildim,
Qəm-qüssə bu günə qədərmiş, demə!

16.02.2023

* * *

Ah-alam üzümə çökən qəmimdir,
Ağlayıb-sızlayan səsim-ünümdür.
Görsən ki ölürəm, yaman günümdür,
Oxşayıb, əzizlə dilinlə məni.

Gec-tez getməliyəm, əgər vaxtısa,
Çatım vüsalına ölüm haqdısa.
Közərən ocağın, odun yoxdusa,
Ovundur somsoyuq külünlə məni.

Demirəm, damcıla qarış qanıma,
Nəfəsin son dəfə hopsun canıma.
Ruhunla göylərdən dönüb yanıma,
Özün tabutaqoy, əlinlə məni...

23.02. 2023

### NİCAT GÖZLƏYİRİK,,,

Mən susuzluqdan
Dodaqları çatlayan
Torpağam,
Sənsə nakam sevgimizin
Közərtisində
Qovrulmuş bir xışma dən.
Bircə zərrə ümid işartısına
Üzümüzü söykəyib,
Nicat diləyirik
Həm bəxtdən,həm də taledən...

25.02.2023

### GET, YOLUN AÇIQ OLSUN...

*(Gənclik illərimlə səsləşən şeir)*

Bir vaxt gözümdən sürüşüb,
Ürəyimdən yıxılan qız.
Ayaqları küçə-küçə,
Səki-səki burxulan qız!

Niyə qəfil döndü üzün,
Ağlınmı səni çaşdıdı?
Kimin odlu baxışları
Gözlərini qamaşdıdı?..

Ürəyim qoymur ki deyəm,
Bəxtinin rəngi tez solsun.
Qanrılıb baxma üzümə,
Çıx get, yolun açıq olsun!

Səni yerdən qaldırmağa
Nə meylim var, nə həvəsim.
Qoy, ağlın bələdçin olsun,
Sənə çatmasa da səsim...

28.02.2023